

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 141 (21.551)

*2 avqust 2016-cı il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## H.S.Yaqubova “Əməkdar dövlət qulluqçusu” fəxri adının verilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Hafiz Səyavuş oğlu Yaqubova **“Əməkdar dövlət qulluqçusu”** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 1 avqust 2016-cı il*

## Cari ilin birinci yarısında muxtar respublika iqtisadiyyatının sürətli inkişafı təmin olunub

***2016-cı ilin ötən dövrü ərzində muxtar respublikada sahibkarlığın inkişafı iqtisadi siyasətin əsas istiqamətlərindən olub, əhalinin maddi rifah halı yüksəlib. Cari ilin fevral ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sahibkarlarla görüşü, onlara göstərilən dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı verdiyi tapşırıqlar daha yüksək nailiyyətlərin əldə olunmasına şərait yaradıb, ümumi daxili məhsul istehsalında özəl bölmənin payı 87 faizə çatıb.***



Bu fikirlər Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyində keçirilən kollegiya iclasında səsləndirilib. İclasda məruzə ilə çıxış edən iqtisadiyyat naziri Famil Seyidov bildirib ki, cari ilin birinci yarısında muxtar respublikada ümumi daxili məhsul istehsalının həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 faiz artaraq 1 milyard 144 milyon manatı ötüb, sənaye məhsulunun həcmi 511 milyon 840 min manatdan çox olub. Vurğulanıb ki, cari ilin müvafiq dövründə kənd təsərrüfatı məhsulları istehsalı və emal sənayesini əhatə etməklə, 13 yeni istehsal və xidmət sahəsi istifadəyə verilib, 21 sahənin yaradılması davam etdirilib. Yaradılması başa çatdırılan sahələrdə 50 yeni iş yeri açılıb.

Bildirilib ki, muxtar respublikamızda mövsümi kənd təsərrüfatı məhsullarına olan tələbatın ödənilməsi, qiymətlərin tənzimlənməsi və idxaldan asılılığın azaldılması məqsədilə 2016-cı ilin ötən dövrü ərzində soyuducu anbarlara 2455 ton məhsul tədarük edilib, istixana komplekslərində yetişdirilən 939 ton məhsul istehlak bazarına çıxarılıb.

Sahibkarların güzəştli kreditlərlə maliyyə təminatının yaxşılaşdırılmasına da toxunan nazir bildirib ki, ötən dövrdə bu məsələ diqqətdə saxlanılıb, iqtisadi fəaliyyətin müxtəlif sahələri üzrə 17 layihənin maliyyələşdirilməsinə 4 milyon 736 min 700 manat olmaqla, ümumilikdə, 2000-ci ildən ötən müddət ərzində 1213 layihənin maliyyələşdirilməsinə 123 milyon 872 min 282 manat həcmində güzəştli kreditlər verilib.

Qeyd olunub ki, muxtar respublikamızda ixrac və investisiya imkanlarının təşviqi, sahibkarların biznes əlaqələrinin genişləndirilməsi məqsədilə 2016-cı ilin birinci yarısında Almaniya, Rusiya, İspaniya, Yaponiya kimi ölkələrdə və respublika daxilində keçirilmiş biznes-forum, konfrans və digər tədbirlərdə 46 sahibkarın iştirakı təmin edilib. Hazırda muxtar respublikada fəaliyyət göstərən ixrac potensiallı 49 müəssisədə istehsal olunan məhsullar Türkiyə, Ukrayna, Yaponiya, Gürcüstan, Belarus, Litva, Rusiya və İran İslam Respublikasına ixrac edilməkdədir. Nəticədə, əldə edilən iqtisadi nailiyyətlər xarici ticarət əlaqələrinin də genişlənməsinə, istehsal olunan məhsulların ixracının artmasına geniş imkanlar açıb, 2016-cı ilin 6 ayı ərzində xarici ticarət dövriyyəsinin həcmi 207 milyon 98 min ABŞ dolları təşkil edib. Bu dövrdə ticarət əməliyyatlarının 91 faizi ixracın, 9 faizi isə idxalın payına düşüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında investisiyaların təşviqi ilə bağlı tədbirlər haqqında” 21 yanvar 2016-cı il tarixli Fərmanına müvafiq olaraq, qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində “İnvestisiya təşviqi sənədi”nin muxtar respublikada müvafiq layihələrə tətbiqi imkanları barədə araşdırmalar aparılıb və investisiya güzəştlərinin tətbiq edilməsi məqsədəmüvafiq hesab edilən 5 layihə istiqamətində müvafiq işlər həyata keçirilib.

Sonda hesabat dövründə görülmüş işlərlə əlaqədar nazirliyin struktur bölmələrinin əməkdaşlarının hesabatları dinlənilib.

## Muzey ziyarətləri davam etdirilir

***İyulun 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində olublar.***



Məlumat verilib ki, Naxçıvan Muxtar Respublikasının ərazisi dünyanın ən qədim insan məskənlərindən biridir. Tarixin bütün dövrlərində bu qədim diyarda zəngin mədəniyyət və memarlıq nümunələri yaradılıb. Bu abidələr arasında Naxçıvanqalanın mühüm əhəmiyyəti vardır. 2010-cu ildə Naxçıvanqalanın bərpasına başlanılıb, tarixi ərazidə yenidənqurma işləri aparılıb, qalanın əvvəlki görkəmi özünə qaytarılıb. Naxçıvanın qədim tarixi-mədəni irsinin mühafizəsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 5 iyun tarixli Sərəncamı ilə “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi yaradılıb. Muzeydə eramızdan əvvəl V minilliyə aid təsərrüfat küpü, eramızdan əvvəl V-III minilliyə aid müxtəlif məişət əşyaları, Son Tunc və Erkən Dəmir dövrlərinə aid keramika məmulatları, mis alətlər, qəbirüstü abidələr, silahlar, zirehli geyimlər nümayiş etdirilir.

Sonra kollektivlər kompleksdə yerləşən Nuh Peyğəmbərin məzarüstü türbəsini də ziyarət ediblər.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin və Ali Məhkəmənin, Naxçıvan Şəhər Məhkəməsi və ixtisaslaşdırılmış məhkəmələrin kollektivləri də “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində olublar.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin kollektivləri Heydər Əliyev Muzeyində, Təhsil, Mədəniyyət və Turizm, Gənclər və İdman nazirliklərinin kollektivləri Dövlət Bayrağı Muzeyində olublar.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat, Nəqliyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin kollektivləri Ədəbiyyat Muzeyini, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının, Maliyyə və Vergilər nazirliklərinin kollektivləri “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini, Kənd Təsərrüfatı, Rabitə və Yeni Texnologiyalar və Səhiyyə nazirliklərinin kollektivləri “Əlincəqala” Tarix-Mədəniyyət Muzey Kompleksini ziyarət ediblər.

Mərkəzi Seçki Komissiyasının, Dövlət Sosial Müdafiə Fondunun, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin, “Kapital Bank” Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan Muxtar Respublika Baş İdarəsinin və “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin kollektivləri Bəhruz Kəngərli Muzeyində, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin, Dövlət Arxiv İdarəsinin, Dini Qurumlarla İş üzrə İdarənin kollektivləri Cəmşid Naxçıvanskinin ev-muzeyində, Dövlət Miqrasiya Xidmətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Dövlət Baytarlıq Xidmətinin kollektivləri Xatirə Muzeyində olublar.

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin, Ana, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin kollektivləri Hüseyn Cavidin ev-muzeyi və Xatirə Kompleksini, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin, Televiziya və Radio Şurasının və “Şərq qapısı” qəzeti redaksiyasının kollektivləri Cəlil Məmmədquluzadənin ev-muzeyini ziyarət ediblər.

## Nəqliyyat Nazirliyində kollegiya iclası keçirilib



***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyində 2016-cı ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib. Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının nəqliyyat naziri Mirsənani Seyidov açaraq məruzə ilə çıxış edib.***

Qeyd edilib ki, hesabat dövründə muxtar respublikada yol-nəqliyyat infrastrukturunun müasir standartlar səviyyəsinə çatdırılması diqqət mərkəzində saxlanılıb. İran İslam Respublikasının ərazisindən keçməklə Bakı-Naxçıvan və Naxçıvan-Bakı marşrutu üzrə 2016-cı ilin 6 ayı ərzində Naxçıvandan Bakıya 12 min 889 nəfər, Bakıdan Naxçıvana isə 14 min 636 nəfər sərnişin daşınıb.

Vurğulanıb ki, muxtar respublikada 139 marşrut xəttində 305 ədəd avtobusla rayon mərkəzləri və kəndlərin hamısına nəqliyyat xidməti göstərilib, sərhəd kəndlərinə və ucqar dağ kəndlərinə işləyən marşrut avtobuslarının hərəkətinə nəzarət artırılıb. Muxtar respublikada 493 ədəd taksi ilə əhaliyə nümunəvi nəqliyyat xidməti göstərilib. Hesabat dövründə avtonəqliyyat vasitəsi sahibləri tərəfindən 72 min 373 manat vergi ödənilib, 5 min 113 ədəd “Fərqlənmə nişanı” alınıb. Yükdaşıma fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin avtonəqliyyat vasitələrinə baxış keçirilib, yükdaşımalarda təhlükəsizlik tədbirləri haqqında həmin sürücülərlə profilaktik söhbətlər aparılıb.

Sonra “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Mahir Əliyev çıxış edərək cari ilin birinci yarısında dəmir yolu sahəsində görülən işlərdən danışıb. Bildirilib ki, “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyəti üzrə 2016-cı ilin 6 ayı ərzində dəmir yolunda sağlamlaşdırma işləri aparılaraq qatarların hərəkətinin təhlükəsizliyi təmin edilib və Türkiyə Respublikasının dəmir yolları ilə birləşdirilməsi məqsədilə Culfa-Sədərək sahəsi üzrə ilkin layihələndirmə işləri həyata keçirilib.

Cari il mart ayının 3-də “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin nümayəndə heyəti ilə İran Dəmir Yollarının idarə heyəti arasında Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarının fəaliyyətə başlaması ilə bağlı müzakirələr aparılaraq müvafiq razılaşma əldə olunub. Növbəti mərhələdə isə istismara buraxılacaq bu dəmir yolu xətti ilə yükdaşımaların da həyata keçirilməsi nəzərdə tutulur ki, bu da dəmir yolunun iqtisadi potensialını xeyli artıracaqdır. Bunlarla yanaşı, yaxın gələcəkdə Bakı-Tbilisi-Qars dəmir yolunun Naxçıvan-Culfa-Təbriz dəmir yolu xəttinə birləşdirilməsi istiqamətində də zəruri tədbirlər həyata keçirilir.

“Naxavtoyol” Dövlət Şirkətinin baş direktoru Bəhruz Əsgərov çıxışında 2016-cı ilin birinci yarısında 1473 kilometr uzunluğunda respublika və yerli əhəmiyyətli avtomobil yollarında təmir, istismar və yenidənqurma işlərinin aparıldığını, yolların saxlanması və istismarına 754,4 min manat vəsait xərcləndiyini bildirib.

Naxçıvan Beynəlxalq Hava Limanının direktoru Mənşur Gülməmmədli son illər ərzində Naxçıvan Beynəlxalq Hava Limanının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində bir sıra işlərin həyata keçirilməsi, əhaliyə göstərilən xidmətlərin səviyyəsinin daha da yaxşılaşdırılması üçün müasir texnoloji avadanlıqların quraşdırılması, qabaqcıl idarəetmə sisteminin yaradılması və bu xidmətdən istifadə edən sakinlərin rahatlığının təmin olunması ilə bağlı görülən işlərdən danışıb.

Qeyd edilib ki, hava nəqliyyatı ilə 2016-cı ilin 6 ayı ərzində Naxçıvan-Bakı marşrutu üzrə 108 min 764 nəfər sərnişin, Naxçıvan-Gəncə marşrutu üzrə 1072 nəfər, beynəlxalq hava xəttində Naxçıvan-Moskva reysi ilə 1246 nəfər, Naxçıvan-İstanbul reysi ilə 2753 nəfər sərnişin daşınıb.

İclasa nəqliyyat naziri Mirsənani Seyidov yekun vurub.

**Xəbərlər şöbəsi**

# Cari ilin birinci yarısının yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



*Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsində kollegiya iclası keçirilib.*

Kollegiya iclasını giriş sözü ilə komitənin sədri Müslüm Cabbarzadə açaraq məruzə edib. Məruzədə qeyd edilib ki, hesabat dövründə komitə tərəfindən muxtar respublika üzrə 1402 torpaq sahəsi, 36 qeyri-yaşayış binası, 42 qeyri-yaşayış sahəsi, 452 mənzil, 886 fərdi yaşayış evi, 6 əmlak kompleksi kimi müəssisə, 3 çoxmərtəbəli yaşayış binası olmaqla, cəmi 2827 daşınmaz əmlak obyekti qeydiyyata alınıb. Birinci yarımil ərzində 189 girov qeydi aparılıb, yüklülüyə dair 1786 arayış verilib, 98 sorğu-məktub cavablandırılıb. Təsdiq olunmuş qrafik əsasında vətəndaşlara səyyari xidmətin göstərilməsi davam etdirilib, Şahbuz rayonunun 6 yaşayış məntəqəsindən 104, Culfa rayonunun 7 yaşayış məntəqəsindən 96, Şərur rayonunun 11 yaşayış məntəqəsindən 112, Ordubad rayonunun 11 yaşayış məntəqəsindən 175, Babək rayonunun 7 yaşayış məntəqəsindən 43, Kəngərli rayonunun 6 yaşayış məntəqəsindən 17 müraciət olmaqla, ümumilikdə, muxtar respublika üzrə 547 vətəndaşın müraciətinə baxılıb. Səyyari qaydada göstərilən xidmətlərin sayı artırılaraq 5-ə çatdırılıb. Hesabat dövründə komitənin müvafiq sektoru və yerli idarələri tərəfindən hazırlanmış 3010 texniki sənədin parametrləri və həmin sənədlər haqqında digər məlumatlar Milli Qeydiyyat Sisteminə daxil edilib.

Daxil olmuş müraciətlər əsasında 2137 texniki sənəd hazırlanıb. Dövlət qeydiyyatına alınacaq əmlaklara texniki sənədlərin hazırlanması məqsədilə 689 əmlaka yerində baxış keçirilərək müayinə aktı tərtib edilib. 172 əmlaka bölgü planı tərtib edilib və bu bölünmələr maraqlı tərəflərin iştirakı ilə yerlərdə mərz nişanları bərkidilməklə icra olunub. Müayinə aktları və bölgü planları da daxil olmaqla, 2881 texniki sənəddə parametrlərin, hesabatların tərtib edilməsinin düzgünlüyü yoxlanılıb. 2016-cı ilin ilk 6 ayı ərzində komitə və onun yerli idarələri tərəfindən hüquqi və fiziki şəxslərə məxsus 58 əmlak real bazar münasibətlərinə uyğun olaraq qiymətləndirilib və həmin əmlaklara dair hesabat və rəylər hazırlanaraq aidiyyəti üzrə təqdim edilib. Muxtar respublika üzrə ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yeni yaranmış 433 daşınmaz əmlak obyektinə ünvan verilib, ünvan xəritələrində qeydiyyatı aparılıb.

Bildirilib ki, hesabat dövründə vətəndaşlara göstərilən müxtəlif növ xidmətlərdən 154775 manat xidmət haqqı və 174670 manat dövlət rüsumu müvafiq hesablara ödənilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində keçirilən kollegiya iclasında komitənin sədri Bəxtiyar İsmayılov çıxış edərək bildirib ki, bəhs olunan dövr ərzində qanunvericiliklə müəyyən edilmiş hüquq və vəzifələrin həyata keçirilməsi istiqamətində müvafiq işlər aparılıb. Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı, 2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı dövlət proqramlarının və komitənin fəaliyyət istiqamətləri üzrə muxtar respublika rəhbəri tərəfindən verilmiş tapşırıqların icrası diqqətdə saxlanılıb.

Komitənin müvafiq işçi qrupları tərəfindən istehsal müəssisələrində, ticarət, ictimai iaşə, məişət və digər xidmət sahələrində texniki normativ-hüquqi aktların tələblərinə əməl olunma səviyyəsinə, istehlak bazarında məhsulların keyfiyyətinə nəzarət məqsədilə dövri olaraq monitorinqlər aparılıb və bu sahədə maarifləndirmə məqsədilə treninqlər təşkil olunub, məktəbli, tələbə və müəllim geyim formalarının, eləcə də məktəbli ləvazimatlarının keyfiyyət göstəricilərinə, təhsil, o cümlədən məktəbəqədər təhsil müəssisələrinin yeməkxanalarına alınan ərzağın keyfiyyətinə nəzarət tədbirləri təmin edilib. Aparılmış monitorinqlər zamanı standartların tələblərinə uyğun olmayan 1661,20 manat dəyərində yararlılıq müddəti bitmiş, keyfiyyətsiz və ya kontrafakt məhsul satışdan çıxarılıb. Bu dövr ərzində keyfiyyətə nəzarət məqsədilə 388 halda məhsulların laboratoriya analizləri aparılıb və sınaq protokolları əldə olunub.



İstehsal olunan çörəklərin çəkisinə və keyfiyyətinə 1023 halda nəzarət tədbirləri aparılıb və nöqsan aşkarlanmayıb.

Standartlaşdırma fondunun zənginləşdirilməsi məqsədilə 24 dövlət standartı, 1 sahə standartı, dövlət qeydiyyatından keçmiş 2 texniki şərt fonda daxil edilib, 1 dövlət standartı, 1 sahə standartı ləğv edildiyindən və 1 texniki şərt qüvvədəolma müddəti bitdiyindən fonddan çıxarılıb.

İstehsal olunan məhsulların keyfiyyət göstəriciləri yoxlanıldıqdan sonra 310 halda sertifikatlaşdırma işi aparılıb.

Komitə sədri bildirib ki, metrologiya xidməti üzrə 387 təsərrüfat subyektində 11514 ədəd ölçmə vasitəsinin yoxlanılması təmin olunub. 3190 ədəd ölçmə vasitəsinə metroloji nəzarət həyata keçirilib. 17 istehsal sahəsində çəkilib (ölçülüb) qablaşdırılmış mallar üzərində 64 halda metroloji nəzarət işi aparılıb, kənarlaşma aşkar olunmayıb. Ölçmə vasitələrinin laboratoriyası, sınağı və attestasiyası sektorunda 2353 ədəd qaz, 4439 ədəd elektrik və 1403 ədəd su sayğacı yoxlamadan keçirilib, 5 ədəd qaz və 45 ədəd elektrik sayğacı yararsız hesab edilib.

Laboratoriyaların akkreditasiyası sahəsi üzrə laboratoriyada beynəlxalq akkreditasiya orqanı tərəfindən inspeksiya nəzarətinin aparılmasında komitənin nümayəndəsi iştirak edib, 4 sınaq laboratoriyasında inspeksiya nəzarəti aparılaraq akkreditasiya sahəsində müvafiq dəyişiklik edilib və muxtar respublikada fəaliyyət göstərən sınaq laboratoriyalarının fəaliyyətinə nəzarət tədbirləri aparılıb.

Bəxtiyar İsmayılov bildirib ki, komitəyə verilmiş tapşırıqların və qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində tədbirlər bundan sonra da tələb olunan səviyyədə davam etdiriləcəkdir.

Məruzə ətrafında müzakirələrdə komitənin şöbə müdirləri Əli Şərifovun, Ceyhun Əliyevin, Pəncalı Hüseynovun çıxışları olub.

Kollegiya iclasına komitə sədri Bəxtiyar İsmayılov yekun vurub.

* * *

*Naxçıvan Şəhər İcra Hakimiyyətində keçirilən yığıncağı giriş sözü ilə icra başçısı Vüqar Səfərov açaraq məruzə edib.*

Bildirilib ki, bu ilin ilk yarısında Naxçıvan şəhərində bir neçə obyektdə tikinti tədbirləri yekunlaşıb, 10-dan çox obyektdə quruculuq işləri davam etdirilir.

Naxçıvan şəhərində iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 371 milyon 931 min 300 manat investisiya qoyulub. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,3 faiz artıb. Vətəndaşların öz vəsaiti hesabına 163 min 562 kvadratmetrlik ərazidə yeni yaşayış sahələri salınıb, şəhərdə əhalinin sayı artaraq 91 min nəfəri ötüb. Hazırda şəhərin inzibati ərazi dairəsinə daxil olan kəndlərin keyfiyyətli içməli su ilə təmin edilməsi, kanalizasiya sistemlərinin çəkilməsi istiqamətində işlər davam etdirilir.

Bildirilib ki, sahibkarlığın dəstəklənməsi, yeni istehsal sahələrinin yaradılması da diqqətdə saxlanılan sahələrdən biri olub. Bunun nəticəsidir ki, cari ilin yanvar-iyun aylarında 376 milyon 478 min manatlıq sənaye məhsulu istehsal edilib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,3 faiz çoxdur. Hazırda şəhərdə çox sayda istehsal və emal sahələrinin yaradılması istiqamətində işlər aparılır. Şəhər əhalisinin məşğulluğu da diqqət mərkəzindədir. Belə ki, bu ilin ilk yarısında 515 yeni iş yeri açılıb, bunun 505-i daimi iş yerləridir. Hər il olduğu kimi, 2016-cı ildə də Naxçıvan şəhərinin yerli büdcəsi subsidiyasız planlaşdırılıb.



Qeyd edilib ki, Naxçıvan şəhərinin ətraf ərazilərindəki meyvə bağlarından 92 ton məhsul yığılıb. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 45 faiz və yaxud 4 ton çoxdur. Bu ilin yanvar-iyun aylarında diri çəkidə 584 ton ət, 730 ton süd, 1 milyon 586 min ədəd yumurta, 19,9 ton yun istehsal edilib. Balıqçılıqla məşğul olan müəssisələr tərəfindən cari ilin yanvar-iyun aylarında 155 min manat dəyərində balıq və xərçəng satılıb. Naxçıvan şəhəri ərazisindəki balıqçılıq təsərrüfatlarında 32 milyon 256 min 800 manatlıq məhsul istehsal edilib. Şəhərdə yaşıllaşdırma tədbirlərinə xüsusi diqqət yetirilib. Bu ilin ilk yarısında şəhər ərazisinə 300 ədəd meşə, 14 min 370 ədəd müxtəlif meyvə, 700 ədəd həmişəyaşıl ağac, 18 min 400 ədəd müxtəlif gül kolları, 65 ədəd dekorativ kollar əkilib. 6,5 hektarda meyvə bağı salınıb, 2 hektarlıq meyvə bağlarında bərpa işləri aparılıb.

Məruzə ətrafında Naxçıvan Şəhər Statistika İdarəsinin rəisi Rövşən Aslanovun, şəhər Maliyyə Şöbəsinin müdiri Aqil Nəsirovun çıxışları olub.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya 2016-cı ilin birinci yarısında fəaliyyətini gücləndirib, qanunvericilikdən, əsasnamədən və iş planından irəli gələn vəzifələri icra edib. Hesabat dövründə dövlət qulluğuna dair qanunvericiliyin dövlət orqanlarında tətbiqinə nəzarət edilib, 4 dövlət orqanının qanunvericiliyə uyğun olmayan 4 qərarı ləğv etdirilib.

Bu sözləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada 2016-cı ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclasında komissiyanın sədri İsmayıl Qəribli deyib. Bildirilib ki, dövlət qulluğuna dair qanunvericiliyin tətbiqi ilə bağlı komissiyanın 7 normativ-hüquqi aktı qəbul edilib, 2016-cı ildən ilk dəfə olaraq muxtar respublikada dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsinə başlanılıb.

Qeyd olunub ki, komissiya Naxçıvan Muxtar Respublikasında vətəndaşların dövlət qulluğuna qəbulunun mərkəzləşdirilmiş qaydada müsabiqə və şəffaflıq şəraitində həyata keçirilməsini təşkil edib. Dövlət orqanlarının yüksək hazırlıqlı və zəruri peşə keyfiyyətlərinə malik kadrlarla komplektləşdirilməsi məqsədilə komissiya tərəfindən elan edilmiş 2 müsabiqəyə 37 dövlət orqanından 495 vakant vəzifə çıxarılıb, həmin vəzifələrin tutulması üçün 847 nəfər sənəd təqdim edib. Müsabiqədə müvəffəqiyyət qazanmış 84 namizəddən 67-si vəzifəyə təyin olunub, 1 namizəd təklif olunan vəzifədən imtina edib,16 namizəd ehtiyat kadr siyahısına salınıb. Dövlət statistika orqanlarında inzibati vəzifələrin yeddinci təsnifatına uyğun vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün elan edilmiş müsabiqənin test imtahanları mərhələsində iştirak edən 205 namizəddən 180-i keçid balını toplaya bilib ki, hazırda müsahibə mərhələsi davam edir.

Hesabat dövründə ehtiyat kadrlarla işin təşkili diqqətdə saxlanılıb, ehtiyat kadrlar siyahısına daxil edilmiş 9 namizəd dövlət orqanlarında analoji vakant vəzifələrə təyin olunub.

Komissiya tərəfindən dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqələrin test imtahanlarının keçirilməsinə köməklik göstərilib, Naxçıvan Muxtar Respublikası Prokurorluğu, Ədliyyə Nazirliyi və Vəkillər Kollegiyası üzrə vakant vəzifələrin tutulması üçün keçirilmiş test imtahanlarında iştirak edən 59 namizəddən 35-i keçid balını toplayıb.

Bundan başqa, cari ilin birinci yarısında muxtar respublikada fəaliyyət göstərən dövlət qulluqçularının Dövlət Qulluqçularının Reyestrinə daxil edilməsi başa çatdırılıb, 5 müsabiqədə iştirak edən 918 nəfərə komissiya tərəfindən elektron xidmətlər göstərilib. Komissiyanın test bazasına 700 yeni sual daxil edilib və testlərin ekspertizası keçirilib.

“Hesabat dövründə dövlət qulluğu haqqında qanunvericiliyin tətbiqi ilə bağlı maarifləndirmə tədbirləri həyata keçirilib, etik davranış qaydalarına riayət olunması, reyestrin aparılması, dövlət qulluqçularının şəxsi işinin aparılması qaydaları və digər mövzularda 182 dövlət qulluqçusunun iştirakı ilə seminarlar təşkil olunub”, – deyən İsmayıl Qəribli bildirib ki, digər mərkəzi icra hakimiyyəti orqanları ilə münasibətlər gücləndirilib, dövlət orqanlarının kadr qurumlarına metodik köməklik göstərilib.

Sonra komissiyanın şöbə müdirləri Ümid Qurbanov və Mahir Abbasov, sektor müdiri Türkan Gülməmmədli məruzə ətrafında çıxış ediblər.

Kollegiya iclasına komissiyanın sədri İsmayıl Qəribli yekun vurub.

* * *

*Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsində də 2016-cı ilin ilk altı ayı ərzində görülən işlər və qarşıda duran vəzifələrlə bağlı yığıncaq keçirilib. Tədbirdə müəssisənin direktoru Behruz Əzimov məruzə ilə çıxış edib.*



Qeyd edilib ki, bəhs olunan dövr ərzində muxtar respublika əhalisinin, idarə, müəssisə və təşkilatların neft və maye qaz məhsullarına olan tələbatını təmin etmək məqsədilə Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsi bir sıra məqsədyönlü tədbirlər həyata keçirib. Bakı Neft Bazası ilə bağlanmış müqaviləyə əsasən, ilin ilk altı ayı ərzində muxtar respublikaya 14214,9 ton A-92 benzini, 59172,9 ton dizel yanacağı, 1371,7 ton bitum, 10410,1 ton mazut, 100,9 ton müxtəlif növ yağlar, 456,3 ton maye qaz gətirilib.

Bildirilib ki, müəssisə 2016-cı ildə ümumi dövriyyəsi 51 milyon 684 min manat olan 85981,2 ton müxtəlif növ neft məhsulları satıb ki, bu da 14888,9 ton avtobenzin, 57085,8 ton dizel yanacağı, 1371,7 ton bitum, 12113,0 ton mazut, 420,9 ton maye qaz, 100,9 ton müxtəlif növ yağlardan ibarətdir. 2016-cı ilin 6 ayında müəssisə satışdan 524,5 min manat mənfəət əldə edib.

Boruların, nasosların, elektrik avadanlıqlarının saz vəziyyətdə olması daim nəzarətdə saxlanılır və lazımi tədbirlər görülür. Müəssisəyə yanacaq daşıyan avtomaşınlar tam saz vəziyyətdədir. Yanacaq ehtiyatı yaradılıb.

1 iyul 2016-cı il tarixə müəssisənin anbarlarında 1564,5 ton A-92 benzini, 3981,5 ton dizel yanacağı, 1817 ton mazut, 66 ton maye qaz ehtiyatı vardır.

Sonra müəssisənin anbar müdirləri Kazım Rzayev və Elbrus İbrahimbəyli çıxış ediblər.

Yığıncağa Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinin direktoru Behruz Əzimov yekun vurub.

**Xəbərlər şöbəsi**

2 avqust Azərbaycan Kinosu Günüdür

# Azərbaycan kinosu xalqımızın milli sərvətidir

***Ümummilli liderimiz Heydər Əliyevin “Azərbaycan Kinosu Gününün təsis edilməsi haqqında” 2000-ci il 18 dekabr tarixli Sərəncamına əsasən hər il avqustun 2-si ölkəmizdə “Azərbaycan Kinosu Günü” kimi qeyd olunur.***

Azərbaycan kinosu xalqımızın maariflənməsində, estetik zövqünün formalaşmasında, milli və vətənpərvərlik hissinin güclənməsində özünəməxsus rol oynamış, milli-mənəvi dəyərlərimizi və adət-ənənələrimizi yaşatmışdır. Milli kino sənətimizin bu cəhətlərini yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyev demişdir: ***“Azərbaycan xalqının bir çox nəsilləri kino sənəti ilə tərbiyələnib, kinonun təsiri altında formalaşıb, inkişaf edib və mədəniyyətə qovuşubdur... Xalqımızın inkişaf yolunda Azərbaycan kinosunun xidmətləri əvəzsizdir”.***

Dünya kinosunun tarixi ilə üst-üstə düşən Azərbaycan kinosu da ilk vaxtlar səssiz və ağ-qara, sonradan isə rəngli və səsli formada olub. Azərbaycan kino sənətinin tarixi 1898-ci ildən başlayır. 1898-1935-ci illərdə Azərbaycanda səssiz kinolar çəkilsə də, bu illərdə həm sənədli, həm də bədii filmlər yaradılmışdır. 1898-ci ildən başlayaraq Azərbaycanda “Şəhər bağında xalq gəzintisi”, “Bazar küçəsi sübhçağı”, “Qatarın dəmiryol stansiyasına daxil olması”, “Bibiheybətdə neft fontanı yanğını” və başqa filmlər çəkilmişdir. 1900-cü ildə Parisdə keçirilən ümumdünya kino sərgisində “Bibiheybətdə neft fontanı yanğını” və “Balaxanıda neft fontanı” xronikaları nümayiş etdirilmişdir.

XX əsrin əvvəllərində dünyanın bir sıra ölkələrində tammetrajlı filmlərin yaradılmasına başlandı. Təbii ki, bu dövrdə ölkəmizdəki ictimai-siyasi və mədəni şərait kino sənətinin formalaşmasına zəmin yaratdı və təqribən, bir əsr bundan əvvəl Azərbaycan yazıçısı İbrahim bəy Musabəyovun dövrün həyat hadisələrini və lövhələrini əks etdirən, janr etibarilə melodram olan “Neft və milyonlar səltənətində” povesti əsasında Azərbaycanda ilk tammetrajlı film çəkildi. Film XX əsrin əvvəllərində neft Bakısının həyatını, Azərbaycan milyonçularının məişətini, bir parça çörək üçün neft mədənlərində ən ağır şəraitdə işləyib yaşayan fəhlələrin güzəranını ekranda canlandırmışdır. Azərbaycanın birinci tammetrajlı bədii filmi olan “Neft və milyonlar səltənətində” kinosuna 1916-cı ildə ilk dəfə Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevin passajında “Fransız Elektrobioqrafı”nda göstərilmişdir. Kino Bakıdan başqa, Qafqazın və Orta Asiyanın bir çox şəhərlərində də nümayiş etdirilmişdir. Beləliklə, “Neft və milyonlar səltənətində” filmi ilk bədii film kimi kino tariximizə daxil olmuşdur. Avropa və Asiyanın bir sıra ölkələrinin ilk tammetrajlı filmlərinin keçən əsrin 30-50-ci illərində yarandığını nəzərə alsaq, bu filmi xalqımızın mədəni səviyyəsinin yüksək göstəricisi hesab etmək olar.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə əlaqədar 1919-cu ildə “Azərbaycanın müstəqilliyinin ildönümü münasibəti ilə təntənə” adlı tammetrajlı sənədli filmi çəkilərək nümayiş etdirilmişdir. Azərbaycanda ilk səsli kinonun istehsalına isə 1935-ci ildə “Mavi dənizin sahilində” bədii filmi ilə başlanılmışdır. Səsli kinonun yaranması ilə sənədli kinomuzun da yaradıcılıq imkanları genişlənmişdir. 1936-cı ildə görkəmli yazıçımız Y.V.Çəmənzəminlinin tərcüməsi ilə sovet kinosunun dünyada tanınan “Çapayev” filminin Azərbaycan dilində səsləndirilməsi ilə kino sənətimizdə dublyajın əsası qoyulmuşdur. 1945-ci ildə yaradılan və ekran sənətimizin qızıl fonduna daxil olan “Arşın mal alan” filmindən sonra Azərbaycan kinosunda musiqili komediya janrına meyil güclənmişdir. Azərbaycan milli kinosunun ən uğurlu filmlərindən hesab olunan “Arşın mal alan” filmi indiyədək 136 ölkədə nümayiş etdirilmiş və 86 dilə tərcümə olunmuşdur. 1956-cı ildə kinomuzda daha bir keyfiyyət dəyişikliyi baş vermiş, ilk rəngli bədii film olan “O olmasın, bu olsun” filmi çəkilmişdir. Ü.Hacıbəyovun bu komediyasının ekranlaşdırılması da milli kinomuza şöhrət gətirmiş, “O olmasın, bu olsun” filmi dünyanın 40-dan çox ölkəsində, o cümlədən Türkiyə, İran, Hindistan, Çin, Yaponiya və başqa ölkələrdə nümayiş etdirilmişdir.

İncəsənətimizin hamisi olan ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin birinci dövründə milli kinonun inkişafına qayğı daha da artmışdır. Həmin dövrdən başlayaraq Azərbaycan kinematoqrafiyasının imkanları genişlənmiş və bu sahədə ciddi nailiyyətlər əldə edilmişdir. Kinomuzun yeni inkişaf mərhələləri yaşadığı həmin illərdə ssenarist, rejissor, operator, rəssam kadrlarının bir neçə nəsli yetişmiş və milli özünəməxsusluğu ilə seçilən koloritli, parlaq ekran əsərləri yaradılmışdır.

1970-1980-ci illərin birinci yarısında Azərbaycan kinosu özünün intibah dövrünü yaşamışdır. Bu illərdə Azərbaycan kinematoqrafçılarının yaratdıqları dəyərli filmlər milli-mənəvi dəyərlərin təbliğində, milli özünüdərk duyğularının oyadılmasında, milli şüurun formalaşmasında və yetişməkdə olan gənc nəslin tərbiyəsində mühüm rol oynamışdır. Bu filmlər məzmun və janr etibarilə kino sənətimizə yeniliklər gətirmiş və bu sevilən sənəti xalqa daha da yaxınlaşdırmışdır. Azərbaycan filmləri içərisində müxtəlif peşə və sənət adamlarının həyatından bəhs edən, tarixi yaddaşı özünə qaytaran filmlərin çox olması ekran sənətimizin mövzu əlvanlığının göstəricisidir. Bədii kinomuzun janr müxtəlifliyi isə filmlərin hərbi, tarixi-qəhrəmanlıq, musiqili komediya, dedektiv, macəra, psixoloji, qrotesk, sosial pamflet, nağıl və başqa janrlarda özünü təcəssüm etdirmişdir. Azərbaycan kinosu həm də multikultural dəyərlərin daşıyıcısı kimi başqa xalqların nümayəndələrinin obrazlarını da filmlərimizdə canlandırmışdır. Bu illər ərzində kino salnaməmizin unudulmaz səhifələrini təşkil edən, mədəniyyətimizin qızıl fonduna daxil olan tarixi filmlər yaradılmış, görkəmli əsərlər ekranlaşdırılmış, müasir mövzulu və sənətkarlıq baxımından diqqətəlayiq filmlər çəkilmişdir. Həmin illərdə Azərbaycanda 110 bədii, 500 sənədli və elmi-kütləvi, eləcə də 44 cizgi filmi istehsal olunmuşdur. “Bir cənub şəhərində”, “Bizim Cəbiş müəllim”, “Dəli Kür”, “Şərikli çörək”, “Dərviş Parisi partladır”, “Yeddi oğul istərəm”, “Axırıncı aşırım”, “Nəsimi”, “Dədə Qorqud”, “Babək”, “Nizami” və başqa bədii filmlərimiz bu illərdə çəkilib. Bu filmlərimizi fərqləndirən əsas cəhətlərdən biri də xalqımızın həyatına, başlıcası isə çoxəsrlik tariximizə, adət-ənənələrimizə, milli dəyərlərimizə daha dərindən nüfuz etməsində idi. Sovet imperiyası dövründə bu, nə qədər çətin olsa da, ulu öndərin təşəbbüsü ilə milli kinomuzun qızıl fondu sayılan bu cür sənət nümunələri yaradılmışdır.

Müstəqillik illərində milli kinomuza xüsusi diqqət yönəldilməsi də məhz ulu öndərin adı ilə bağlıdır. Ötən əsrin 90-cı illərində məhv olmaq təhlükəsi ilə üzləşən incəsənətin bu vacib sahəsi 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. 1998-ci il 19 avqust tarixdə “Kinematoqrafiya haqqında” Qanun qəbul edilmiş və bununla da, dövlət kinematoqrafiyasının hüquqi bazası yaradılmışdır. 1996-cı ildə isə Azərbaycan Dövlət Film Fondu yaradılmış, filmlərin qorunması təmin edilmişdir.

Bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən milli kino sənətinin inkişafı üçün mühüm işlər həyata keçirilir. Ölkə başçısı 2008-ci il 4 avqust tarixli Sərəncamla “Azərbaycan kinosunun 2008-2018-ci illər üçün inkişafına dair Dövlət Proqramı”nı təsdiq etmişdir. Proqramda kinofilmlərin istehsalının artırılması, eləcə də müasir kino avadanlıqları və texnikası ilə təchizat, xarici ölkələrlə birgə film istehsalının genişləndirilməsi, kinoteatrların yenidən qurulması nəzərdə tutulmuşdur. Artıq ölkəmizdə kinostudiyaların maddi-texniki bazaları gücləndirilmiş, yeni filmlər çəkilmiş, kino sənətimiz inkişafın müasir mərhələsinə qədəm qoymuşdur. C.Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasının istehsalı olan aktual mövzulu filmlər təkcə son illər 50-dən çox beynəlxalq film festivalında iştirak edərək Azərbaycan gerçəkliklərini dünyanın kino auditoriyasına çatdırmış və nüfuzlu mükafatlara layiq görülmüşdür.

Azərbaycan kino sənətinin inkişafında Naxçıvan torpağının yetirdiyi sənətkarlar Qəmər Salamzadə, Rza Təhmasib, Həbib İsmayılov, Məmmədhüseyn Təhmasib, Şamil Mahmudbəyov, Ramiz Mirişli, Elxan Qasımov və başqalarının dəyərli xidmətləri olmuşdur. Unudulmaz filmlərimizdən olan “Nəsimi”, “Dədə Qorqud”, “Babək”, “Əzablı yollar”, “Gümüşgöl əfsanəsi”, “Doğma sahillər” və başqa ekran əsərlərinin müəyyən hissələri və natura çəkilişləri Naxçıvan Muxtar Respublikasında aparılmışdır. Bu gün də Naxçıvan Muxtar Respublikasında kino sənətinin inkişafına böyük diqqət və qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı nəticəsində Naxçıvan şəhərində “Gənclik” Mərkəzi yaradılmış, Şərurda “Bahar”, Şahbuzda “Araz” kinoteatrları, Ordubad və Babək rayon mədəniyyət evləri yenidən qurulmuş, ən müasir videoproyektorlarla, lazımi texniki avadanlıqlarla təchiz olunmuşdur. Muxtar respublikamızda Dövlət Film Fondunun fəaliyyət göstərməsi də bu sahəyə göstərilən qayğının daha bir nümunəsidir. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin iş planına əsasən “Azərbaycan Kinosu Günü” çərçivəsində hər həftə bir milli bədii film geniş ictimaiyyətə təqdim olunur. “Nabat”, “Cavad xan”, “Arşın mal alan”, “Axınla aşağı”, “Buta”, “Əbədi ezamiyyət”, “Hədəf Bakıdır” və başqa bədii, sənədli filmlərimiz geniş ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. Naxçıvan Dövlət Film Fondunda 4500-dən çox film saxlanılır. Azərbaycan filmləri ilə yanaşı, burada müxtəlif ölkələrdə istehsal olunmuş bədii, sənədli filmlər, cizgi filmləri, qısametrajlı, elmi-kütləvi, Azərbaycan dilinə dublyaj edilmiş filmlər də mühafizə olunur. Eyni zamanda fondda 100-dən çox Azərbaycan filminin ssenarisi ilə tanış olmaq imkanı da mövcuddur.



*Azərbaycan kinosu zamanın böyük sınaqlarından şərəflə çıxaraq xalqa xidmət yolunu tutmuş və sevilən sənət sahəsinə çevrilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dediyi kimi:* ***“Bizim kinonun tarixi və əldə etdiyi nailiyyətlər milli sərvətimizdir, mədəni sərvətimizdir və bunu qorumalıyıq”.***

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

# Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü qeyd edilib

***Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında 1 avqust – Azərbaycan Əlifbası və Ana Dili Günü münasibətilə tədbir keçirilib.***



Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin aparat rəhbəri Gülbuta Babayeva tədbiri giriş sözü ilə açaraq qeyd edib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli Fərmanı ilə hər il avqustun 1-i ölkəmizdə “Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü” kimi qeyd olunur.

Bildirilib ki, Azərbaycan dilinin dövlət dili kimi qəbul olunması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Dahi rəhbər hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycan dilini milli varlığın əsas amili kimi daim diqqət mərkəzində saxlayıb. Hələ sovetlər dönəmində Moskvanın təzyiqlərinə baxmayaraq, xalqımızın böyük oğlu Heydər Əliyev misilsiz cəsarət göstərərək 1978-ci ildə Azərbaycan dilinin Azərbaycan SSR Konstitusiyasında dövlət dili kimi təsbit olunmasına nail olub.

Dahi rəhbərin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra, 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının 21-ci maddəsində Azərbaycan dilinin dövlət dili olması öz əksini tapıb. Ulu öndər Heydər Əliyevin “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 2001-ci il 18 iyun tarixli Fərmanı ana dilimizin inkişafında, ədəbi dil normalarının tətbiqində mühüm rol oynayıb. Bundan sonra “Azərbaycan Respublikasının dövlət dili haqqında” Qanun qəbul edilib.

Qeyd olunub ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət dil siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı” Azərbaycan dilinə və dilçiliyinə diqqət və qayğının ifadəsi olmaqla, həm də bu sahədə görüləcək mühüm işlərin müəyyənləşdirilməsinə və həyata keçirilməsinə şərait yaradıb.

Vurğulanıb ki, bu gün muxtar respublikamızda dövlətimizin dil siyasəti uğurla həyata keçirilir. Naxçıvan şəhərində “Ana dili” abidəsinin ucaldılması ana dilimizə ehtiramın ifadəsidir. Son illər muxtar respublikamızda dilimizin saflığı və qorunması üçün həyata keçirilən tədbirlər geniş ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır.

Sonra AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent Firudin Rzayev “Dilimizin qədim quruluşu və yayılma arealı”, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Əliyev “Ən böyük milli qürurumuz – ana dilimiz”, M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanova “Azərbaycan dilinin dövlət dili kimi rəsmiləşdirilməsi və inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır” mövzularında çıxış ediblər. Qeyd olunub ki, bu gün Azərbaycan əlifbası və dili dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyon azərbaycanlının doğma əlifbası, doğma dili, ünsiyyət vasitəsi olmaqla bərabər, onları bir-birinə qırılmaz tellərlə bağlayan çox güclü amildir. Dilimizin zənginliyini bu dildə yaranmış dastanlar, nağıllar, bayatılar, rəvayətlər, atalar sözləri və digər xalq yaradıcılığı nümunələri də sübut etməkdədir.

Vurğulanıb ki, bugünkü gəncliyin vəzifəsi babalarımızın bizə miras qoyduğu, əmanət etdiyi ana dilimizin saflığını qorumaqdan ibarətdir.

Tədbir iştirakçıları sonda əlamətdar günə həsr olunmuş sərgiyə baxıblar.

Qeyd edək ki, Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü münasibətilə muxtar respublikanın rayon mərkəzlərində də tədbirlər keçirilib, sərgilər təşkil edilib.

**Əli RZAYEV**

# Naxçıvanda *“Yay tətili uşaqların gözü ilə”* devizi altında festival keçirilib

***“Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə “Yay tətili uşaqların gözü ilə” devizi altında festival keçirilib.***



Festivalın açılış mərasimində Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov çıxış edərək deyib ki, bu gün sürətlə inkişaf edən Naxçıvan Muxtar Respublikasında bütün sahələrlə yanaşı, təhsil sistemində də mütərəqqi islahatlar həyata keçirilməkdədir. 1996-cı ildən ötən dövr ərzində 200-dən çox təhsil müəssisəsi üçün bina tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Həyata keçirilən tədbirlər sırasında məktəbdənkənar müəssisələrin fəaliyyəti də diqqətdən kənarda qalmayıb. 20 il bundan əvvəl belə müəssisələrin fəaliyyəti tamamilə dayandırılmışdı. Bu gün isə muxtar respublikada şagirdlərin asudə vaxtlarının səmərəli təşkilində 44 belə müəssisə fəaliyyət göstərir. Ayrı-ayrı rayonlarda şahmat məktəbləri, uşaq-gənclər yaradıcılıq mərkəzləri və başqa məktəbdənkənar müəssisələr üçün inzibati binalar tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq uşaq və gənclərimizin istifadəsinə verilib. Yaradılmış yüksək şəraitin nəticəsində məktəbdənkənar müəssisələrdə fəaliyyət göstərən dərnəklərə 28 minə yaxın şagirdin cəlbinə nail olunub. Həmin dərnəklərin fəaliyyəti sayəsində uşaqların asudə vaxtlarının səmərəli təşkili, onların meyil, maraq, qabiliyyətlərinin inkişaf etdirilməsi, əmək tərbiyəsinin həyata keçirilməsi, xüsusi istedada malik uşaqların aşkara çıxarılması sahəsində xeyli işlər görülüb. Bu il Təhsil Nazirliyi və məktəbdənkənar tərbiyə müəssisələrinin hazırladığı tədbirlər planına uyğun olaraq, ilk növbədə, yay tətili günlərində uşaq və yeniyetmələrin asudə vaxtlarının səmərəli təşkili, zərərli vərdişlərdən uzaqlaşdırılması, istirahət müddətində onların bilik səviyyələrinin, dünyagörüşünün artırılmasına köməklik göstərilməsi üçün uşaq yaradıcılıq mərkəzlərinin, idman məktəblərinin bazasından geniş istifadə olunması nəzərdə tutulub. Yay aylarında uşaq yaradıcılıq mərkəzlərində fəaliyyət göstərən müxtəlif dərnəklərin, idman bölmələrinin işinə diqqət artırılıb. Bu gün muxtar respublikamızda fəaliyyət göstərən məktəbdənkənar müəssisələrin hesabat günüdür. Festivalda həmin müəssisələrin tədris ili ərzində gördükləri işlərə yekun vurulacaq və eyni zamanda Təhsil Nazirliyinin tədbirlər planına uyğun olaraq, məktəbdənkənar tərbiyə müəssisələrinin illik fəaliyyətinin təhlili yolu ilə həyata keçirilmiş müsabiqələrin qalibləri mükafatlandırılacaqdır.

Qeyd olunub ki, keçirilən bu festival bundan sonra da məktəbdənkənar tərbiyə müəssisələrinin hesabatı xarakteri daşıyaraq ənənəvi olaraq həyata keçiriləcəkdir. Rayon (şəhər) təhsil şöbələri məktəblilərin yay tətilinin yüksək səviyyədə keçirilməsini təmin etməklə rayon mərkəzlərində hesabat xarakterli festivalların keçirilməsinə nail olmalıdırlar.

Festivalda Təhsil Nazirliyinin seçim qrupu tərəfindən müəyyənləşdirilmiş, muxtar respublika, ölkə və beynəlxalq səviyyəli yarış və müsabiqələrdə uğur qazanmış 30 ən



yaxşı dərnək üzvü, onların uğur qazanmasında əməyi olan 15 ən yaxşı dərnək rəhbəri və muxtar respublikamızda şagirdlərin yay tətili günlərinin və asudə vaxtlarının səmərəli təşkilində xüsusi rol oynayan 8 məktəbdənkənar müəssisə mükafatlandırılıb. 44 məktəbdənkənar müəssisənin fəaliyyətinin ümumiləşdirildiyi festivalda istedadlı uşaqların hazırladıqları əl işləri, şahmat və idman məktəblərinin müxtəlif bölmələrinin çıxışları maraqla qarşılanıb.

Festivalda dərnək üzvlərinin hər birinin fərqli istedada, fərqli əl qabiliyyətinə malik olduqlarını duymaq



çətin deyildi. Onlardan biri də Şərur Rayon Uşaq Yaradıcılıq Mərkəzinin dərnək üzvü Fərid Qafarlıdır. O, müxtəlif maketlər hazırlayıb. Festivalda qalib adına yiyələndiyi üçün çox sevinclidir. Bu festivalda əl işlərinin hazırlanmasında dərnək rəhbərlərinin adını xüsusilə qeyd etməliyəm. Kəngərli Rayon Uşaq Yaradıcılıq Mərkəzində dərnək rəhbəri Həsən Həsənlinin dediklərindən:

– Bu gün ilk dəfə muxtar respublikada belə bir festival keçirilir. Etiraf edək ki, əvvəllər məktəbdənkənar müəssisələrin işləri diqqətdən kənarda qalmışdı. Son aylarda belə məktəblərin işində bir canlanma olub. Bu festivalın keçirilməsi, necə deyərlər, biz dərnək rəhbərlərinə qol-qanad verdi. Festivalda “Ən yaxşı dərnək rəhbəri” müsabiqəsinin qalibi oldum. Bu mükafat mənim yaradıcılığım üçün böyük stimul olacaq.

Festivalda Bakıdan, xarici dövlətlərdən gələn qonaqlar da iştirak edirdilər. Bakı şəhərindən gələn Könül Quliyeva festivalın onda xoş təəssürat yaratdığını bildirdi. İran İslam Respublikasının Astara şəhərindən Süreyya Xani isə Naxçıvanda istedadlı insanların çox olduğunu dedi. Ən çox diqqətini çəkən Naxçıvan Qızlar Liseyinin toxuma dərnəyi üzvlərinin əl işləri olub.

Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin “Əlvan çiçəklər”, Estetik Tərbiyə Mərkəzinin “Fidanlar”, Naxçıvan Musiqi Kollecinin mahnı və rəqs ansamblları, Şərur rayon məktəblilərinin yallı, Şahbuz Rayon Uşaq Yaradıcılıq Mərkəzinin rəqs qrupları və Gənc Heydərçilərin çıxışları festivala ayrı bir rəng qatıb.

✍ **Sara ƏZİMOVA**

## Gənclər Ağbulaq İstirahət Mərkəzindən xoş təəssüratlarla qayıdıblar

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi Ağbulaq İstirahət Mərkəzində “Gənclərin yay məktəbi”ni təşkil ediblər.***

Burada gənc fəallar müxtəlif mövzularda diskussiyalarda, intellektual oyunlarda iştirak edib, sosial şəbəkələrdən istifadə qaydaları və bu sahədə fəallığın təmin edilməsi mövzularında keçirilən seminarlarda müzakirələr aparıblar.

Altıgünlük istirahətin ilk günlərində gənclər “Heydər Əliyev və Azərbaycan gəncliyi” adlı seminarda iştirak ediblər, “Ağbulaq” bulağında və Batabat yaylağında, Şahbuz rayonunun ərazisindəki tarixi yerlərdə olublar. Həmçinin gənclər proqrama uyğun olaraq, 27 və 28 iyul tarixlərində “Nuh yurdu” intellektual oyununda iştirak ediblər. 26, 27 və 28 iyulda isə müvafiq olaraq təşkil olunan mini-futbol, şahmat və voleybol yarışlarında gənclərin fəallığı diqqətdən yayınmayıb.

İyulun 26-da düşərgəyə dəvət olunmuş rəssam tərəfindən iştirakçılara rəsm üzrə ustad dərsləri keçilib. İstirahətin sonunda – iyulun 30-da isə Naxçıvan Dövlət Filarmoniyasının konsert proqramı təşkil edilib.

Qeyd edək ki, Ağbulaq İstirahət Mərkəzində təşkil olunan “Gənclərin yay məktəbi”ndə Naxçıvan Dövlət və “Naxçıvan” universitetlərinin, Naxçıvan Müəllimlər İnstitutunun, Naxçıvan Tibb və Naxçıvan Dövlət Texniki kolleclərinin 50-yə yaxın tələbəsi iştirak edib.

“Gənclərin yay məktəbi”ndə iştirak edən “Naxçıvan” Universitetinin tələbəsi Nurtac Seyidova bizimlə söhbətində bildirdi ki, burada istirahət üçün hər bir şərait yaradılıb. Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi Cahangir Məmmədovu isə daha çox cəlb edən rəsm üzrə ustad dərsləridir. Əsgər Quliyev (Naxçıvan Dövlət Universiteti) ilk dəfə Ağbulaq İstirahət Mərkəzində istirahət edib: “Açığı, bu istirahət mərkəzində şəraitin belə olduğunu bilmirdim. Mərkəzdə həm mənalı istirahət etdik, həm də öyrəndik”.

Naxçıvan Tibb Kollecinin tələbəsi Xanım Hüseynli isə Ağbulaq İstirahət Mərkəzində keçirilən “Nuh yurdu” intellektual oyununda fəal iştirak edib. O, burada yaradılan şəraitdən razılıqla danışdı.

✍ **Ceyhun MƏMMƏDOV**

## *“Bir cənub şəhərində”* filmi nümayiş etdirilib

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tərtib etdiyi qrafikə əsasən, rayonlarımızda Azərbaycan Kinosu Günü ərəfəsində milli bədii filmlərimizin nümayişi bir həftədir ki, davam etdirilir. Bu münasibətlə Şərur şəhərindəki “Bahar” kinoteatrında “Bir cənub şəhərində” filminin nümayişi olmuşdur. Filmin nümayişindən əvvəl Naxçıvan Dövlət Film Fondunun direktoru Mirakif Seyidov çıxış edərək Azərbaycan kino sənətinin keçdiyi çətin və şərəfli inkişaf yolu haqqında danışmışdır. Bildirilmişdir ki, bu illər ərzində yüzlərlə yüksək səviyyəli bədii film, iki minə yaxın sənədli, elmi-kütləvi, yüzdən çox cizgi filmi və başqa kinosüjetlər çəkilmişdir.

Vurğulanmışdır ki, bu gün nümayiş etdiriləcək “Bir cənub şəhərində” bədii filmi 1969-cu ildə ekranlara çıxmışdır. Filmin rejissoru Eldar Quliyev, operatoru Rasim Ocaqov, bəstəkarı Fərəc Qarayevdir. Film hazır olduqdan sonra sovet senzurası bu kinonun ekranlara çıxmasını yasaqlamışdır. Məhz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bu film ekranlara çıxmışdır. Sosial kinopovest janrında çəkilmiş bu film sovet cəmiyyətinin eybəcərliklərini təcəssüm etdirir. Kino əsəri çox da böyük olmayan cənub şəhərlərindən birinin adamları, onların həyatı və əməyi haqqındadır. Burada hələ də insanların şüurunda keçmişin qalıqlarının kök salması, insanın mənəvi azadlığa necə böyük çətinliklə nail olması ön plana çəkilmişdir. “Bir cənub şəhərində” filmində kinosevərlərin ekrandan yaxşı tanıdığı görkəmli sənətkarlarımız Həsən Məmmədov (Murad), Eldəniz Zeynalov (Tofiq), Yusif Vəliyev (Səfərəli), Sadıq Hüseynov (Babaş), Tələt Rəhmanov (Milis nəfəri) və başqaları çəkilmişlər. Filmdə Azərbaycan xalqının məişət səhnələrini əks etdirən kadrlar da maraq doğurur. Bu filmimiz də həyat hadisələrinin reallığı və sənətkarlıq baxımından diqqəti cəlb edir.

**Əli RZAYEV**

## Hərbi liseylərə və rezidenturaya qəbul imtahanı keçirilib

***Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyası iyulun 29-da Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi liseylərinə qəbul imtahanı keçirib.***



Naxçıvan şəhərində imtahan 14 nömrəli tam orta məktəbdə baş tutub. İmtahan saat $11^{00}$-dan $13^{00}$-dək davam edib. İmtahanın şəffaf keçirilməsi məqsədilə 5 imtahan rəhbəri, 62 nəzarətçi-müəllim cəlb olunub. İmtahanda iştirak etmək üçün 671 nəfər qeydiyyatdan keçib. İmtahan iştirakçılarına hər birində 20 sual olmaqla, 4 fənn – Azərbaycan dili, riyaziyyat, fizika və kimya üzrə, ümumilikdə, 80 test tapşırığı təqdim edilib.

Məlumat üçün bildirək ki, həmin gün 2016-2017-ci tədris ili üçün Azərbaycan Respublikasında baza ali tibb təhsili əsasında həkim-mütəxəssislərin hazırlanması məqsədilə rezidenturaya qəbul imtahanının II mərhələsi də keçirilib. İmtahanda namizədlərə 100 sual təqdim olunub və hər bir düzgün cavab 1 balla qiymətləndirilib. Səhv cavablar namizədin imtahan nəticəsinə təsir göstərmir. Müsabiqə baza və ixtisas fənlərindən toplanılan balların cəminə əsasən aparılır. Müsabiqədə iştirak etmək üçün namizədin ixtisas fənləri üzrə topladığı test balı 50-dən, ümumi balı isə 90-dan az olmamalıdır. Rezidenturaya qəbul olmaq üçün ixtisas seçimi avqustun 1-dən 7-dək aparılacaq. Namizədlər müəyyən olunmuş müddət ərzində elektron ərizələrinə daxil olaraq ali tibb təhsili bazasına uyğun (bitirdiyi fakültəyə müvafiq olan) ixtisasları seçib təsdiq etməlidirlər.

✍ **Fatma BABAYEVA**

### İtmişdir

Kəngərli rayonunun Xok kənd sakini Nağdəliyev Vilayət Tağı oğlunun adına olan 1009 inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Cəbrayılov Loğman Murtuzəli oğlunun adına verilmiş attestat itdiyindən etibarsız sayılır.

* * *

Cəlallı Qurban Ramazan oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Səfərov Anar Haqverdi oğlunun adına olan zabitin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 579